15 iyul 2021-ci il, cümə axşamı XALQ QƏZETİ

**Avropa çempionatının 16-cı qalibini müəyyənləşdirən Avro–2020 artıq 4 gündür tarixə qovuşub. Lakin dünya mətbuatında onun haqqında ən müxtəlif mövzularda mübahisələr və şərhlər bitmir və elə bilirik heç bitməyəcək də. Nə qədər futbol var, bu oyun milyonlarla azarkeşi özünə cəlb edir, bu Avropa çempionatı da unudulmayacaq. Ona görə də biz çempionatın yekunları, statistikası və maraqlı detalları haqqında qısaca olsa da, oxuculara məlumat verməyi vacib hesab etdik.**



# Avro–2020: tarixin ən məhsuldar çempionatı



Əvvəla, bu Avropa çempionatı ötən turnirlərlə müqayisədə bir çox nailiyyətləri təkrarlasa da, bir çox sahələrdə rekordları yenilədi. İlk göstərici, heç şübhəsiz, İngiltərənin bu turun 13-cü debütant finalçısı olması idi. Biz turnir haqqında aparılan statistikalarla yaxından tanış olub, bəzi nəticələri qeydə aldıq.

Avro–2020-də qapılara 142 qol vurulub və bu, Avropa çempionatları tarixinin ən məhsuldar turniri hesab edilir. Bu qollardan 52-si oyunun birinci hissəsində, 83-ü ikinci hissədə, 7-si isə əlavə vaxtda vurulub.

Turnirdə 80 futbolçu qapılara qol vurub ki, bu da bir turnir üçün yeni rekord kimi qeydə alınıb.

Avro–2020 həm də avtoqollarla rekord yazdı. Bütün keçmiş turnirlərdə ən çox 9 avtoqol qeydə alınmışdı. Bu turnirdə isə qapılara 11 avtoqol vuruldu. İlk dəfə öz qapılarına qol vuranlar isə qapıçılar – Şensni, Qradeçki və Dubravka oldu.

Avro–2020 üçün rekord sayılan ən böyük hesablı qələbə İspaniya–Slovakiya matçında qeydə alındı 5–0. Avropa çempionatları tarixində 3 dəfə belə hesab qeydə alınıb, bir dəfə isə 6 –1 hesablı matç olub.

Avro–2020-nin daha bir rekordu 3–3 hesablı ən məhsuldar heç-heçə olub. Bu hesab iki dəfə təkrarlanıb: Fransa–İsveçrə matçında və Xorvatiya–İspaniya matçında əlavə vaxtda.

Avro–2020-nin ardıcıl məhsuldar oyunları kimi rekordu isə Danimarkanın Rusiya və Uels millilərinin qapılarına vurduğu 4 qolu, İspaniyanın isə Slovakiya və Xorvatiya millilərinin qapılarından keçirdiyi 5 qolu hesab edilir. Əvvəllər belə ardıcıl oyunlar olmayıb. Ümumiyyətlə, İspaniya Avro–2020-də rəqib qapılarına 13 top vurub ki, bu da komandanın yeni rekordudur.





Bütün Avropa turnirlərində vurulan qolların sayına görə Kriştianu Ronaldo 14 topla birinci yerdədir. Avro–2020-də o, Mişel Platinini geridə qoyaraq Avropa çempionatları tarixinin ən yaxşı bombardiri oldu. Turnirlərdə iştirakına görə də Kriştianu Ronaldo rekorda imza atıb. O, 5 dəfə milli komandanın heyətində Avropa çempionatlarında çıxış edib. Bu göstəriciyə



görə, portuqaliyalı hücumçu İspaniya millisinin keçmiş qapıçısı İker Kasilyasla bərabərləşib, lakin ondan fərqli olaraq bütün turnirlərdə meydana çıxıb.

Portuqaliyalı futbolçu Avropa çempionatlarında keçirdiyi matçların sayına görə də hamını geridə qoyaraq 25 oyunla rekordu yeniləyib. Ronaldo, həmçinin meydanda keçirdiyi vaxta görə də – 2min 153 dəqiqə ilə hamıdan irəlidədir. O, turnirlərdə 12 qələbə matçı keçirməklə və 16 oyunda kapitan sarğısı ilə meydana çıxmaqla da Avropa çempionatları iştirakçıları olan bütün futbolçulardan öndə gedir.

Bir turnirdə vurulan 11 metrlik cərimə zərbələrinin sayına görə də Kriştianu Avropa çempionatlarının rekordunu yazıb. Çünki ona qədər heç kim bir turnirdə üç 11 metrlik cərimə zərbəsi vurmayıb.

Lakin turnirdə qapısını toxunulmaz saxlamaq “yarışında” İngiltərə millisinin qapıçısı Cordan Pikford hamıdan irəlidədir. O, 5 oyunda qapısını toxunulmaz saxlamaqla İker Kasilyasın Avro–2012-dəki rekordunu təkrarlayıb. Lakin İtaliya millisinin müdafiəçisi Bonuççi ingilis qapıçının yeni rekorda imza atmasına imkan verməyib.

Turnirin ayın 23-də keçirilən dörd oyununda qapılara 18 qol vurulub. Bu Avropa çempionatının final mərhələsinin tarixində ən məhsuldar gün sayılır. Beş gün sonra isə pley-off mərhələsinin məhsuldarlıq rekordu yenilənib – iki matçda 14 qol vurulub.

Turnirin ən gənc oyunçusu isə Polşa millisinin yarımmüdafiəçisi kimi meydana çıxan Kaçper Kozlovski olub. İspaniya ilə qarşılaşmada əvəzləmə ilə ilk dəfə meydana çıxanda onun yaşı 17 il 246 gün idi.

Baş məşqçilərin yarışmasında isə Yoahim Löv bütün həmkarlarından üstün olub. O, Avropa turnirlərində baş məşqçi kimi 21 oyun keçirib. Bu oyunların 12–də qalib gəlib ki, bu özü də rekord hesab edilir. Yeri gəlmişkən, Lövün komandasının turnirin start matçında Fransa millisinə məğlub olması Avropa çempionatları tarixində 11 start matçından birincisidir.

Avropa turnirlərində ardıcıl qələbə qazanan məşqçilər nominasiyasında isə 8 matçda məğlubiyyətin nə olduğunu bilməyən Portuqaliya millisinin baş məşqçisi Fernandu Santuşdur. O, bu göstərici ilə Avropa çempionatının rekordunu yeniləyib.

Baş hakim kimi Avropa çempionatlarında ən çox oyun idarə edən isə Türkiyə hakimlər korpusunun tanınmış nümayəndəsi Cüneyt Çakırdır. Çakır Avrolarda 9 matçda baş hakim kimi meydanda olub. Heç bir hakim onun qədər bu turnirlərdə oyun idarə etməyib.

Yeri gəlmişkən, Cüneyt Çakır və niderlandlı hakim Byörn Kyupers üç Avropa çempionatı turnirində matçlarda işttirak ediblər. Heç bir hakim onlar qədər Avropa turnirlərində iştirak etməyib.

Bir turnirdə ən çox oyun idarə edən hakimlərin siyahısına isə 5 oyunla Almaniya təmsilçisi Feliks Brıx başçılıq edir. Bu da turnirin rekordu hesab olunur.

Bir maraqlı statistika da Niderland Çexiya milliləri arasında olan qarşılaşmada qeydə alınıb. Avropa çempionatlarının tarixində (1976 – 2020-ci illər) hakimlər 4 dəfə hniderlandlı futbolçulardan birini qırmızı vərəqə ilə oyundan kənarlaşdırıblar. Bunların 4-ü də Çexiya millisi ilə qarşılaşmada baş verib. Sonuncu dəfə elə bu səbəbdən Çexiya, turnirin favoriti sayılan Niderlandı Avrodan kənarlaşdırıb. Həmin oyunda topu əli ilə saxlayıb, təhlükəli hücumu dayandırdığına görə müdafiəçi De Liqt oyundan qovulub.

Avro–2020-də matçda ən gec qələbə qolu Ukrayna – İsveç matçında ukraynalı hücumçu Dovbik tərəfindən vurulub. Matçın 121-ci dəqiqəsində vurulan bu qol həm də Avropa çempionatları tarixinin ən gec vurulan qoludur.



Turnirin əlavə vaxtlarında ən məhsuldar oyunu isə İspaniya və Avstriya komandaları nümayiş etdiriblər. Bu komandalar əlavə vaxtlarda – overtaymda qapılara 3 qol vurublar.

Avropa çempionatları tarixində “lotereya” – 11 metrlik zərbələr seriyasında isə turnirin son çempionu İtaliya millisinə çatan yoxdur. “Skuadra Adzurra” turnirin tarixində 7 dəfə 11 metrlik zərbələr vurmaqda iştirakçı olub. Sonuncu Avro–2020-də isə bu “lotereya”nın qalibi kimi çempion tituluna sahib olub.

Turnirdə daha çox 11 metrlik zərbə dəf edən qapıçılar isə Unai Simon və Canluici Donnarumma oldu. Avro–2020 üçün bu göstərici də rekorddur.

Avropa çempionatında ən çox iştirak edib titul qazanmayan komanda isə İngiltərə millisidir. İngilislər bu turnirlərdə 10 dəfə iştirak etmələrinə baxmayaraq, bir dəfə də olsun çempion titulunu qazana bilməyiblər. Bu da Avropa çempionatlarının antirekordudur.

Turnirdə ən uzaq məsafədən vurulan qolun müəllifi isə Çexiya millisinin hücumçusu Patrik Şik sayılır. O, 45, 50 metr məsafədən Şotlandiya millisinin qapısına əla qol vurmaqla Avropa çempionatının tarixinə öz rekordunu həkk etdi. Çexiyalı hücumçu həm də ayrıca bir Avroda 5 qol vuran doqquzuncu futbolçudur.

Maraqlıdır, görəsən ən çox qol hansı şəhərdə vurulub və Bakı bu siyahıda neçəncidir? Qapılara ən az qol Sevilyada vurulub – 4 matça 8 top. Roma, Qlazqo, Budapeşt və Bakıda isə komandalar qapılardan 11 top keçirə biliblər. Qeyd olunan şəhərlərin hər birində 4 matç keçirilib. Münhen, Amsterdam və Buxarestdə keçirilən 4 qarşılaşmada isə 14 qol qeydə alınıb. Londonda keçirilən 8 qarşılaşmada da eynən 14 qol vurulub. Qapılara ən çox qol isə Kopenhagen və Sankt Peterburq meydanlarında vurulub. “Qazprom Arena”da 7 oyuna, Danimarkanın paytaxtında isə turnirin 4 oyununda qapılardan 17 top keçirilib.

Çempionatın ilk və sonuncu qolu İtaliya millisinin iştirak etdiyi matçlarda qeydə alınıb. Birinci qol Romada Türkiyə – İtaliya qarşılaşmasında 53-cü dəqiqədə Merih Dəmirəlin öz qapılarına vurduğu avtoqoldur. Sonuncu 142-ci qol isə İtaliya – İngiltərə matçının 67-ci dəqiqəsində Bonuççinin vurduğu bərabərlik qoludur. Bu qol qalibi müəyyənləşdirmək üçün komandaları 11 metrlik zərbələrə daşıyıb.

Turnirdə İtaliya – Avstriya qarşılaşmasında qolla fərqlənən Federiko Keyzanın atası Enriko Keyza da İtaliya millisinin heyətində Avropa çempionatı turnirində fərqlənib. Bu turnirin tarixində yeganə belə hadisədir.

İngiltərə millisi ilk dəfə qrup mərhələsində iki top vuraraq pley-offa çıxıb. Hər iki final iştirakçısı – ingilislər və italiyanlar qrup mərhələsində qapılarından top buraxmayıblar. Əvvəllər bu göstəriciyə yalnız dörd milli komanda nail ola bilib.

İtaliya millisi 53 ildən sonra Avropa çempionatında yalnız ikinci tituluna sahib olub. Bu Avropa çempionatları tarixində qələbələr arasında ən uzun fasilədir.

Avropa çempionatlarının ən sürətli qolunu isə Polşa ilə qarşılaşmanın 82-ci saniyəsində İsveç millisinin oyunçusu Emil Forsberq vurub. İkinci yerdə isə 99-cu saniyədə belçikalıların qapısından top keçirən danimarkalı Yussuf Poulsendir. İngiltərəli Lyuk Şounun İtaliya ilə qarşılaşmanın 116-cı saniyəsində rəqib qapısına vurduğu qol isə final matçlarının ən sürətli qolu kimi qeydə alınıb.

İsveçrə millisinin forvardı Harris Seferoviçin 1/8 final matçında Fransa komandasının qapısına vurduğu qol Avro tarixinin 800-cü qolu oldu. Avstriyalı Mixael Qreqoriç çempionatların 700-cü, Niderlandın kapitanı Jorjinyo Veynaldum isə 750-ci qolunu vurdu. Son iki qolun ikisi də Şimali Makedoniyanın qapısına vurulub.

Beləliklə, Avro–2020-nin yekunu olaraq İtaliya ikinci dəfə titula sahib oldu. Statistikaya görə, 13 qolla İtaliya və İspaniya milliləri turnirin ən məhsuldar komandaları kimi tarixə düşdülər. Ən yaxşı oyunçu Canluici Donnarumma, ən yaxşı gənc oyunçu isə İspaniya millisinin yarımmüdafiəçisi Pedri seçildi. Ən yaxşı bombardir isə 5 qol və 1 məhsuldar ötürmə ilə Kriştianu Ronaldo oldu.

*İlqar RÜSTƏMOV,*
*“Xalq qəzeti”*